*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (6) 2023*
https://doi.org/10.46868/atdd.2023.

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 21.11.2023*
*Kabul tarihi |Accepted: 10.12.2023*
*Yayın tarihi |Published : 25.12.2023*

**Bahtiyar Hasanov**

https://orcid.org/0000-0003-4868-2664
*Associate Professor, Azerbaijan National Academy of Sciences of History Institute, Azerbaijan, bahtiyarhasanli2022@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Hasanov, B. (2023). 1905-1906-ci illərdə Zəngəzur hadisələri: səbəblər, hadisələr barədə erməni mətbuatının yaydığı yalan və böhtanlar. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (6), 2570-2581.

# 1905-1906-ci illərdə Zəngəzur hadisələri: səbəblər, hadisələr barədə erməni mətbuatının yaydığı yalan və böhtanlar

**Öz**

*XIX-XX əsrin əvvəllərində Cənubi Qafqazda çar Rusiyasının həyata keçirdiyi müstəmləkəçi idarəçilik sisteminə qarşı əhali arasında başlayan narazılıqlar sonradan kütləvi etirazlara səbəb oldu. Bu etirazların qarşısını almaq üçün çar hökuməti əraziyə XIX əsrin əvvəllərindən köçürüb gətirdiyi xristian erməniləri silahlandıraraq bölgədə Türk-müsəlman əhalisinə qarşı bir soyqırımı aktı həyata keçirdi. Mənbələrdə göstərilir ki, çar hökumətinin bölgənin idarəçiliyinə təyin etdiyi məmurlar bu kütləvi qırğınlara qarşı çox etinasız yanaşmış və cinayətkar dəstələrin üzvləri barədə heç bir tədbir görməmişdir. Bunu dövrün mənbələrinin verdiyi məlumatlarda aydın görmək olur. Bununla yanaşı çar hökuməti Cənubi Qafqazda ermənilərin əlində olan çoxlu mətbuat vasitələrindən istifadə edərək ermənilərin törətdiyi cinayətləri ört bastır etmiş, bəzən isə bu cinayətləri qəsdən Türklərin törətməsi barədə yalan şaiyələr yayaraq dünya ictimaiyyətini aldatmağa çalışmış ki, bir çox halda buna nail ola bilmişdir. Erməni terror dəstələri Zəngəzur bölgəsində Azərbaycan Türklərini qətlə yetirməklə bərabər əhalinin mal-mülkünü də talan edərək ələ keçirmişlər.*

**Anahtar kelimeler:** *Zəngəzur, 1905-1906-cı illər, çar Rusiyası, erməni yalanları, mətbuat*

# The events of Zangezur in 1905-1906: the reasons, the lies and slanders spread by the Armenian press about the events

***Abstract***

*At the beginning of the 19th and 20th centuries, discontent among the population against the colonial administration system implemented by Tsarist Russia in the South Caucasus later led to mass protests.In order to prevent these protests, the tsarist government carried out an act of genocide against the Turkish-Muslim population in the region by arming the Christian Armenians it had brought to the area since the beginning of the 19th century The sources show that the officials appointed by the tsarist government to manage the region were very indifferent to these massacres and did not take any measures against the members of the criminal gangs. This can be clearly seen in the information provided by the sources of the time. At the same time, the tsarist government covered up the crimes committed by the Armenians in the South Caucasus by using the many media in the hands of the Armenians, and sometimes it tried to deceive the world community by spreading false rumors that the crimes were committed by the Turks, which it succeeded in many cases. Armenian terrorist gangs killed Azerbaijani Turks in Zangezur region and looted the property of the population.*

**Keyword:** *Zangezur, 1905-1906, Tsarist Russia, Armenian lies, press*

## Giriş

Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Zəngəzur ərazisində XX əsrin əvvəllərində ermənilər azərbaycan Türk-müsəlman əhaliyə qarşı kütləvi şəkildə qırğınlar törədərək bir soyqırımı həyata keçirmişlər. Ermənilərin bu qırğınları törətməkdə məqsədləri bölgədə yaşayan yerli Türk əhalisini bu bölgədən sıxışdırıb çıxarmaq və sonrakı dövrlərdə bu ərazidə daxil olmaqla bir “erməni dövləti” yaratmaq idi. Ermənilərə həm siyasi, həm də hərbi cəhətdən dəstək verən böyük güclərin marağı isə bu siyasətin həyata keçirilməsini nəzarətdə saxlamaqla bölgədə öz siyasi-iqtisadi maraqlarını təmin etmək olmuşdur. Ona görə də bu siyasəti həyata keçirən güclər həmişə ermənilərin yaratdığı cinayətkar silahlı terror dəstələrindən istifadə etmişlər. Əsasən erməni millətindən ibarət olan bu silahlı terror dəstələri ayrı-ayrı ölkələrdə yaradılmış erməni siyasi partiyalarının və dini kilsələrin göstərişləri ilə fəaliyyət göstərmişlər. Bu silahlı dəstələrə ayrılan vəsait isə bölgədə marağı olan böyük güclər tərəfindən qarşılanmışdır. 1905-1906-cı illərdə erməni kilsələrinin birbaşa rəhbərliyi, millətçi erməni partiyalarının maddi dəstəyi, Rusiya imperiyasının, həmçinin bölgədə maraqları olan digər Qərbi Avropa ölkələrinin o, cümlədən müsəlman ölkəsi

olan İranın yardımını alan ermənilər (Azərbaycanın əzəli və əbədi torpağı, 2020, s. 365). Azərbaycanın əksər bölgələrində kütləvi qırğınlar törətmiş, on mindən çox insanı qətlə yetirmişlər. Bu hadisələr başlamamışdan əvvəl (1901-1902) Avropa ölkələrinin paytaxtlarında mətbuatdan, parlamentarilərin tribunalarından "erməni məsələsi" hay-küyü eşidilməkdəydi. Hətta 1902-ci il iyunun 4-7-də Brüsseldə "erməni məsələsi"ni dəstəkləmək üçün beynəlxalq konfrans belə çağırılmışdı. Konfrans "erməni məsələsi"ni müzakirə və müdafiə edəcək xüsusi bir komissiya yaratdı və qətnamə qəbul etdi. Brüsseldə, hətta, həmrəylik mitinqi də keçirildi. Bu mitinqdə məşhur fransalı siyasətçi Jan Jores Fransa tərəfindən Avropanın fikrini erməni məsələsinə yönəldiləcəyinə əmin olduğunu bəyan etdi və dedi: "Rusiyanın mövqeyi də Fransanın mövqeyindən asılıdır". "1904-cü ildə katolikos Mkrtıç Xrimyanın tapşırığı ilə arxiyepiskop Hovser Saracyan (Amerika), arxiyepiskop Sahak Ayvazyan (İran və Hindistan) böyük dövlətlərin başçılarına müraciət edərək onları "erməni məsələsi"nin həllinə kömək etməyə çağırdılar. Fransa prezidenti Fransue Lube hər iki arxiyepiskopu iyulun 6-da qəbul etdi. Prezident ermənilərin tələbinə biganə qalmadığını, hətta rəğbətlə yanaşdığını bildirdi" Göründüyü kimi bölgədə marağı olan böyük dövlətlər erməni terror dəstələrini dəstəkləyərək öz maraqlarını təmin etməyə çalışmışlar (Həsənov, 2022, s. 76-77).

**1.Mənbələr hadisələrin səbəbləri barədə nə yazır**

Qədim Azərbaycan bölgələrindən biri olan Zəngəzur bölgəsi Şimali Azərbaycanın digər bölgələri kimi Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra bu bölgədə də imperiyanın inzibati-ərazi idarəçilik sistemi tətbiq edildi. Zəngəzur bölgəsi Qacarlar dövləti ilə sərhəddə olduğu üçün imperiyanın ucqar sərhəddi kimi həmişə strateji əhəmiyyətə malik olmuş, imperiya rəhbərliyi bu bölgəyə xüsusi önəm vermiş və daim öz nəzarətində saxlamağa çalışmışdır.

1905-1906-cı illərdə Qafqazda baş vermiş hadisələr zamanı ermənilər tərəfindən törədilən qırğınlardan çar hökuməti öz maraqları naminə istifadə etmiş və əraziyə xaricdən köçürüb gətirərək yerləşdirdiyi xristian ermənilərin bu hadisələri törətməsini var gücü ilə təmin etməyə çalışmışdır. Bu siyasətə uyğun ermənilərin bölgədə hərəkətə keçməsini təmin etməyə çalışan çar hökuməti hələ 1903-cü ildə Qafqazda erməni məktəbləri, kilsələri və digər dini təşkilatların mal və pullarını müsadirə edərək ( Sertçelik, 2017, s. 285) erməniləri üsyana təhrik etməyə nail olmuşdur. O dövrün mənbələrinin verdiyi məlumatlarda bildirilir ki, bu qərardan narazı qalan ermənilərlə dövlət gücləri arasında qarşıdurma meydana gəlmiş, şəhərlərdə nahaq qanlar axmış, xalqlar bir-birinə çox zülmlər etmişdir. Bunun təsiri hər tərəfi bürüdükcə insanlar rahat həyatdan məhrum olmuşdur (Nəvvab, 1993, s. 14). Hadisələrin bu cür cərəyan etməsini istəyən çar hökuməti 1905-ci ilin əvvəllərində

Qafqaza ermənipərəst Vorontsov-Daşkovu canişin təyin etməklə hadisələri millətlərarası münaqişəyə çevirərək idarə etməyə başlamışdır. Ermənipərəst Vorontsov-Daşkovun Qafqaz canişini təyin edilməsi erməniləri cəsarətləndirmiş (Sertçelik, 2017, s. 285), onlar generalın dəstəyi ilə müsəlmanlara qarşı hücumlar təşkil edərək kütləvi qırğınlar törətməyə başlamışlar. O zaman saray müşaviri olmuş V.F.Mayevskinin bu hadisələrlə bağlı yazdığına görə, Vorontsov-Daşkov Tiflisdə erməni-azərbaycan nümayəndələrinin yığıncağında iclası açarkən demişdir ki, "Cənablar, başlıca olaraq yadda saxlayın... Məsələ onda deyil ki, "bu qırğında kim günahkardır...", hansı vasitələr lazımdır ki, həqiqətən bu bəlanın qarşısını ala bilsın" (Sertçelik, 2017, s. 285). Bu çıxışında Vorontsov-Daşkov bu hadisələri törədən cinayətkarların cəzalandırılmasından bəhs etməməklə bir növ hadisəni törədənlərin toxunulmazlıqlarını təmin etmişdir. Çünki əgər hökumətin Qafqaza təyin etdiyi canişin tərəfindən cinayətkarlar cəzalandırılmırsa hansı vasitə ilə bu qırğınların qarşısını almaq olardı?

Çar hökumətinin bu hadisələri törədən erməni daşnaklarla işbirliyində olmasını ermənilərin özləri də etiraf etmişlər. Qafqazdakı erməni hadisələri ilə bağlı olaraq Erməni Mərkəzi Komitəsi tərəfindən hazırlanan bir sənəddə, rus bürokratiyasının şeytani bir üsula müraciət etdiyi göstərilir. Bu şeytani metoda misal olaraq isə rus bürokratlarının "ermənilərin tatar (Türk-H.B.), rus və gürcüləri öldürəcəyi" şəklində söz-söhbət yaydıqları ifadə edilir. Hətta Şuşada qubernatorun Azərbaycan Türklərini toplayaraq eyhamlı bir tərzdə onları ermənilərə qarşı qaldırmağa çalışdığı, ancaq bunun müvəffəqiyyətli olmadığı qeyd edilir (Sertçelik, 2017, s. 283). Ermənilərin özlərinin etitaf etdiyi kimi hətta çar hökumətinin dəstəyinə baxmayaraq azərbaycan Türkləri bölgəyə gəlmə olan xristian erməniləri məhv etmək üçün hökumətlə heç bir razılaşmaya getməyib, əksinə sülhün tərəfdarı olmuşlar. Maraqlıdır ki, bu sənədi hazırlayan ermənilər bu hadisələri bildiyi halda özlərinin imperiyanın dəstəyin alaraq azərbaycan Türklərinə qarşı terror üsuli ilə bir soyqırımı həyata keçirməsindən bəhs etməmişlər. Çünki özlərinin də etiraf etdiyi kimi çar hökuməti tərəfindən yaradılmış bu münaqişələr zamanı məhz onlar ermənilər Qafqazın digər qəzaları ilə yanaşı onlar üçün çox əhəmiyyətli olan Zəngəzur qəzasında da yerli azərbaycan Türklərinə qarşı kütləvi vəhşiliklərə əl atmış, yüzlərlə kəndi viran etmiş, minlərlə insanı öldürmüş, orada yaşayan əhalini öz yurd-yuvasından didərgin salmışdılar (İsmayılov, 2017, s. 13-14). Bu hadisələrin baş vermə səbəblərindən birincisi XIX əsrin sonu-XXəsrin əvvəllərində erməni dini kilsələri və siyasi təşkilatlarının bölgədə apardığı şovinist millətçi təbliğat olmuşdur. Bunu arxiv sənədlərində verilmiş məlumatlarda təsdiqləyir. Belə ki, hadisələrin sona çatmasına baxmayaraq 1907-ci ilin

sentyabr ayında ermənilər tərəfindən Yelizavetpol (Gəncə) quberniya rəhbərliyinə göndərilmiş məxvi sənəddə hələ də Daşnakstyun partiyasının üzvlərinin Gorus şəhər məktəbində müəllimlər və şagirdlər arasında şovinist millətçi təbliğat aparması ilə bağlı məlumatlar verilmişdir (Azərbaycan tarixi arxiv sənədlərində, 2012, s. 52). Bu münaqişənin səbəbləri ilə bağlı hətta o zamankı erməni mətbuatında da məlumatlar verilmişdir. Erməni dilində dərc olunan “Murç” jurnalının noyabr-dekabr 1905-ci il tarixli nömrəsində Al. Rubeni imzası ilə “Erməni-müsəlman qırğınlarının iqtisadi-siyasi səbəbləri” adlı məqalədə müəllif qırğınların səbəbini belə izah edir: “İnqilabi hərəkatın genişlənməsi nəticəsində laxlamış hakimiyyət öz ölümünün yaxınlaşdığını görüb, qırğınlar törətməklə , əhali arasında xof yaratmaq və beləliklə də onun öz xilasını hakimiyyətin qanadları altında axtarmağa məcbur etmək istəyirdi”. Daha sonra müəllif erməni burjuaziyasının müsəlman burjuaziyası üçün təhlükəli rəqib olduğunu qeyd edərək yazır ki, Bakı neft sənayesinin 30 faizi ermənilərin, 5 faizi Türklərin, Qarabağ və Nuxanın (Şəki) ipək sənayesinin, Zəngəzur mis mədənlərinin, İrəvan şərab müəssisələrinin və pambığın ixracının çoxunun ermənilərin əlində cəmləşməsi müsəlman burjuasında narahatlıqlar yaratmış və onlar erməniləri sıxışdırmaq üçün milli zəmində toqquşmalar törətməkdə maraqlı olmuşlar. Həmçinin müəllif məqalədə yazır ki, hökumətin başın itirməsindən istifadə edən panislamistlər “Daşnakstyun”un simasında panarmenizmi Qafqazdan sıxışdırıb çıxarmağı qarşılarına məqsəd qoymuşlar (Mustafa, 2022, s. 21-22). Ruben yazdığı bu məqalədə öz erməni xislətini biruza vermiş, o zamankı şər-böhtan və yalanlarla dolu olan çirkin erməni təbliğat maşınını işə salmağa çalışmışdır. Çünki müəllif ilk öncə yazır ki, bu hadisələr hökumətə qarşı yönəlmiş narazılığı azaltmaq üçün hökumət tərəfindən təşkil edilmişdir. Sonra müəllif hökumətin başın itirdiyini yazaraq öz fikirlərini inkar edir və hadisələrin iqdisadi zəminlə yanaşı dini zəmində baş verdiyinə işarə edərək hiyləgərcəsinə xristian dünyasına mesaj verərək kömək istəyir.

1905 il hadisələri zaman imperiya rəhbərliyi tərəfindən Qafqazda müsəlmanlara olan ögey münasibətlə bağlı Həyat qəzetinin 1905-ci il iyulun 19-da Teleqraf xəbərləri bölməsində verilmiş məlumat maraqlı olduğu üçün qismən tamam mətni burda veririk. Tiflisdə 1905-ci il iyulun 16-da Qafqaz canişini Vorontsov-Daşkovun rəhbərliyi ilə yerli (məhəlli) seçkilərlə bağlı müşavirə keçirilmişdir. Bu müşavirə ərəfəsində iyulun 10-da Qafqaz müsəlmanlarının 9 nəfərlik nümayəndə heyəti canişinin qəbulunda olmuşlar. Bakı, Gəncə, Tiflis (Borçalı), Dağıstan, Batum vilayət və nahiyələrini təmsil edən “Kaspi” qəzetinin imtiyaz sahibi və vəkili Əli Mərdan bəy Topçubaşov, mülkədar Rəşid xan Şirvanlı, praporşik (gizir-H.B) Əsəd bəy Səlimxanov, doktor Məhəmməd Rza

bəy Vəkilov Bakı vilayətini, Vəkil Adil xan Ziyadxanov, mülkədar Həmid bəy Zülqədərov Gəncəni, mülkədar Həsən bəy Yadigarov Borçalı qəzasını, Həmid bəy Vəkilov Dərbəndi, mülkədar Məhəmməd bəy Sancaqbəyzadə Batum müsəlmanları adından hazırlanmış tələbnaməni canişinə təqdim etmişlər. Tələbnamədə göstərilmişdir ki, Voronsov-Daşkovun canişinliyindən sonrakı dövrdə Qafqaz müsəlmanları ağır duruma məruz qaldılar və qalırlar. Qafqazı idarə edənlərin nəzərində müsəlmanlara din və məzhəb üzərindən hər cür müamilə oluna bilər düşünülərək ogey övlad kimi baxılır. Müsəlmanlara hökumət tərəfindən aparılan bu ayrıseçkilik siyasəti Qafqaz müsəlmanlarının inkişaf və tərəqqisi yolunda böyük bir sədd çəkdi. Müsəlmanlar orta əsrlərdən qalma feodal vergi və töyücülərin ağırlığı altında qalıb əzilməkdədirlər. Müsəlmanlar ümumimperiya miqyasında tətbiq olunan mütərəqqi islahatların hamısından məhrum qaldı, dövlət idarəçiliyindən, hərbi, mülki məmuriyyətdən kənarda saxlanıldılar. Nəinki dövətin yüksək vəzifələrində təmsil olunmurlar, heç aşağı vəzifələrə belə layiq bilinmirlər (Qənbərli H, 2020, s.104-105). Milli tərəqqinin ən qüvvətli vasitələrindən sayılan milli maarifin inkişafına sədd çəkildi. Müsəlman məmləkətlərində olan məktəblər, bu məktəblərdə mövcud olan təlim üsulları, tədris olunan mövzular (Məsələn, Levitskinin "Dilsiz" əsəri) müsəlmanların məktəbə nifrət etməsinə səbəb olub. "Çünki, ətvali məzkurə məktəbdə öz ana dilini biləməyib səy və iqtidarları xaricində rəqabət imtahanları verməyə məcbur olurlar". Müsəlman ruhanilər yetişdirən məktəb və mədrəsələrin fəaliyyətinə qadağa qoyuldu, ruhanilərin dövlət məktəblərində hazırlanması din xadimlərini xalq arasında olan nüfuzunun sürətlə itirilməsinə səbəb oldu. Müsəlmanlara ən çox zərər vuran amillədən biri də ana dilində qəzet, məcmuə və kitab çap olunması yolunda üzləşdikləri maneələrdir. Maarif və xeyriyyə cəmiyyətlərinin açılmasına icazə verilməsi ilə bağlı xahiş və mü-racitələrə heç bir cavab verilmir. Misal olmaq üzrə şunu zikr etmək kafidir ki, Qafqasiya mü-səlmanları bir rabe əsrdən bəri bir cəmiyyəti xeyriyyəyi İslamiyyə təsisi üçün rüsxət alamayır. Tərəqqi və təkmilləşmə yollarına qeyri-təbii bir sədd çəkilən müsəlmanlar həm də iqtisadi cəhətdən çox ağır bir vəziyyətə düşdülər. Müsəlman kəndlilər orta əsrlərdən qalma feodal vergi və töycülərinin ağırılığı altında qalıb əzilməkdədirlər. Bununla bərabər əkinçilər səhv ərazi ucbatından zəhmət və məşəqqət çəkdikləri "məmləkət ərazilərindən mühacir hissələri ihsar edilərək bu hissələr ünvani imtiyazat ilə rus mühacirlərinə verilir. Halbuki, bunlara ən ziyadə ehtiyacə olanlar bilxassə müsəlman kəndliləridir. Bu kəndlilərin mənafeyinə dərcə ehmal edilməkdə olduğu Qazax uyezdində olan "Qaraqoyunlu" kəndinin "Xanəşin" və "Qızıl qayın" çölləri və Gəncə quberniyası Şuşa qəzasının "Qulular" qəsəbəsi və çoxsaylı digər ərazilərin başlarına gələn əhvaldan aydındır.

Həmin ərazilərdə rus kəndlilərinə vermək üçün yerli müsəlman kəndlilərinin ev, bağ, bağça, dəyirman, kəhriz, quyu, heyvan saxlamaq üçün yaratdıqları qışlaq və yaylaqları əllərindən alındı. Halbuki həmin torpaqlar birbaşa xəzinənin sərəncamında olub yerli kəndlilərin icmalıqla istifadəsində idi. İyulun 19-da Qafqaz müsəlmanlarının vəkilləri Ə. Topçubaşov, M.R.Vəkilov, H. Zülfüqarov, Həsənbəy Yadigarov, Həmid bəy Vəkilov və başqaları Qafqaz canişini Vorontsov-Daşkovun yanına gedərək Tiflisdə çağrılmış ictimaeyyi islam millətləri tərərfindən imzalanmış ərzihalı təqdim edirlər. Burada həmin ərzihalın məzmunu da dərc olunmuşdur (Təzə həyat qəz, 1905). O zaman Qafqazın qabaqcıl müsəlmanlarının dövlətin müsəlmanlara qarşı münasibətini tənqid etmələrinə baxmayaraq, erməni mətbuatı imperiya rəhbərliyinin müsəlmanlara verdiyi dəstəkdən söz açaraq yalan və böhtan dolu məlumatları tirajlamışdır. Məqsəd isə dövlətin ermənilərə qarşı diqqətini artırmaq olmuşdur ki, ermənilər buna da böyük ölçüdə nail olmuşlar.

Hadisələrin səbəblərini o dövr hadisələrin şahidlərindən olmuş M.S.Ordubadi Qanlı illər əsərində belə izah edir. Birinci səbəb kimi müsəlmanları müharibəyə təhrik etmək üçün daşnaklar tərəfindən təqsirsiz və günahsız insanların öldürülməsi. İkinci səbəb kimi çar hökuməti məmurlarının baş vermiş hadisələrə etinasız yanaşması. Üçüncü səbəb kimi ermənilərin bu qədər kütləvi qırğınları törədə bilməsi, onların əvvəlcədən silahlanaraq hazırlıqlı olmaları, müsəlmanların ermənilərin və rus məmurlarının Qafqazda tutduğu əqidəni və hiyləgərcəsinə törətdiyi bu hadisələri dərk edə bilməmələri ilə yanaşı müsəlmanların silahsız olmalarını. Dördüncü səbəb kimi isə ermənilərin Qafqazda avtonomiya-idarə muxtariyyəti həvəsində olmalarını göstərmişdir. Ordubadi qeyd edirdi ki, bütün bunlar üçün ermənilərin din xadimləri və şovinist erməni milliyyətçiləri hər ay Parisə, Amerkaya, Almaniyaya Londona gedərək məlumat verirlər (Ordubadi, 1991, s. 8-10). Yenə də Naxçıvan hadisələrindən bəhs edən Ordubadi yazır ki, bu işlərin başçıları polkovnik Krılov və naçalnik Angillər idi. Hətta müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətllərə maneə olmayıb, əksinə camaatı qətl və qarət etməyə qızışdırmışdır. Naxçıvan camaatının zülm və əziyyət altında əzilməsinə baxmayaraq hökumət bu işləri yoluna qoymaq fikrində deyildir (Ordubadi, 1991, s. 20-21).

O zaman bu hadisələrin baş vermə səbəblərinin şahidi olmuş M.M.Nəvvab baş vermiş hadisələrin səbəblərin bu hadisələrlə bağlı yazdığı əsərində belə izah edir: Ermənilərin Qarabağda (o zaman Zəngəzur qəzasının ərazisi Qarabağa aid olmuşdur-H.B) törətdikləri cinayətlər və qırğınlar haqqında hər gün rus dövlət orqanlarına xəbər çatdırılsa da, hökumət tərəfindən heç bir tədbir görülmürdü. Qarabağa göndərilən bir neçə yüz kazakın isə məscidin önündə silahsız əhaliyə

atəş açaraq üç nəfər azərbaycanlını öldürməsi əhali arasında böyük narazılığa səbəb olmuş, bu hadisə ilə bağlı qubernator Ağdama gəlmişdir. Qubernator müsəlmanlardan kazakların bu xətalarını bağışlamağı xahiş etmiş və guya ki, ermənilərə qulaqburması vermək üçün silahlı kazakları Tağ, Tuğ, güney və Quzey Çartaz kəndlərinə göndərmişdir. Kazaklar bu kəndlərdə ermənilərə qarşı vəhşiliklər törədərək, gözəl erməni qadınlarını, qızlarını zorlamış, uşaqlara rəhm etmədən öldürmüş, evləri yandırmış və qarəət etmişlər (Nəvvab, 1993, s. 106-107). Nəvvab tərəfindən verilmiş bu fakt da hadisələrin baş vermə səbəbini hökumətin münaqişəni nizama salmaq yox qızışdırmaqda maraqlı olduğunu göstərən faktdır. M. M. Nəvvab hadisələrin səbəblərindən biri kimi ermənilərin hiyləgərliyini göstərərək yazır: "Xankəndində ermənilər iki rus kişisinə və arvadına üç yüz manat pul verərək onlardan xahiş etmişlər ki, müsəlmanları hökumət yanında günahkar çıxarmaq üçün bir tədbir görsünlər... Ruslar bu təklifi qəbul etmişlər". Rus qadınları soyunaraq müsəlmanların onları soyduqlarını qışqıraraq deməsinə baxmayaraq, hökumət tərəfindən aparılmış axtarış zamanı rus qadınları və kişiləri həbs edilməkdən qorxaraq bunun ermənilər tərəfindən düşünüldüyünü və onlara bunu etmələri müqabilində üç yüz rub ödədiklərini etiraf etmişlər (Nəvvab, 1993, s. 108). Ermənilərin belə hiyləgərcəsinə hökumətin silahlı dəstələrini müsəlmanların üzərinə yönləndirməsi haqda o zamankı mətbuatda, sənədlərdə və yazılmış əsərlərdə çoxlu məlumatlar vardır. Yuxarıda verilmiş faktlardan da aydın görünür ki, 1905-1906-cı illərdə hadisələrin baş vermə səbəblərindən biri demək olar ki, ən əsası çar hökumətinin bölgədə həyata keçirdiyi iqtisadi-siyasi müstəmləkəçilik siyasəti olmuşdur. Digər səbəblərdən biri də Avropa dövlətlərinin bölgəni öz nüfuz dairələrinə keçirmək üçün ermənilərə söz verdikləri "böyük Ermənistan" dövlətinin yaradılması idi. Şovinist erməni millətçiləri bundan istifadə edərək ərazidə yaşayan yerli əhalini kütləvi surətdə qıraraq yaşayış məntəqələrini dağıdıb ölü zonaya çevirirdilər ki,məqsədlərinə nail ola bilsinlər.

## 2. 1905-1906-ci illər hadisələrilə bağlı o dövrün ermənidilli mətbuatının yaydığı yalan və böhtanlar

1905-1907-ci illərdə ermənilərin Türk-müsəlman əhalisinə qarşı törətdiyi qanlı olaylara baxmayaraq erməni mətbuatı dünyaya ermənilərin, azərbaycanlılar tərəfindən qətlə yetirilməsi barədə şişirdilmiş yalan məlumatlar verirdi.

Bu dövrdə erməni mətbuatı Azərbaycan Türklərini panislamizm və pantürkizm ideyalarını yaymaqda günahlandıraraq, azərbaycanlıları Osmanlı imperiyasının təhriki ilə xristian erməniləri yox etməkdə ittiham edirdilər (Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920), 2001, s.

XVI). 1905-ci il iyunun 11-də buraxılmış həyat qəzetinin 5-ci sayının İrəvan xəbərləri bölməsində erməni “Mşaq” qəzetinin səhifələrində belə yalan və böhtan dolu məlumatlar verilirdiyi vurğulanmışdır. Belə ki, “Mşaq” qəzetinin yazdığına görə, İrəvanda güya müsəlmanlar ermənilərə qarşı vəhşiyanə əməllər törətmişlər (Təzə həyat, 1905). Həyat qəzetinin yazdığına görə belə yalan və böhtan dolu məlumatlar əhali arasında təşvişə səbəb olmuşdur.

Hələ o vaxt təzə nəşrə başlayan erməni qəzeti “Arşalus”un 26 avqust 1905-ci il birincı nömrəsində bir məqalədə yazılırdı: “Bizim əziz Vətənimız Qafqaz iqtisadən talan və puç olmaqdadır. Amma yenə müsəlmanların qara dəstələri, yenə öz vəhşi hərəkətlərinə doymaq bilmədən öz əməllərində davam edirlər. Ermənilər inandı, barışıq dəstəsı çəkdi... Nə oldu, az vaxt çəkmədi ki, müsəlman vəhşiliyi təzədən alışdı. Təzədən günahsız erməni qanları töküldü... İndi təzədən ... Şuşaya, Zəngəzura və Bakıya kimi qanlı tufanlar sədr oldu. İndi müsəlmanlar o qədər cürətli olublar ki, insafsızcasına bütün xristianları, hətta rus soldatlarınıda qırmaqdadırlar. Balaxanıda qoşuna bombalar atır, Bakıda general-qubernatorun evinə güllələr yağdırırlar” (Ağayev, Təzə həyat, 1905). Bu iftiraya cavab olaraq Həyar qəzetinin 8 sentyabr 1905-ci ildə buraxılmış sayında yazılır: Allahu Əkbər! Bu qədərdə qırmızı yalan olarmı? Fəsadın kimimn tərəfindən başlandığı, general-qubernatorun iqamətgahına kimlər tərəfindən güllə atıldığı, bombaların kimin evində bulunduğu, kazaklara kimlərin güllə atdığı hökumətə çox yaxşı məlumdur (Qənbərli, 2020, s.192). O dövr ermənilərin mətbuat vasitəsilə yaydığı bu yalan və böhtanlar əhali arasında təşvişə səbəb olmaqla yanaşı həm də hökumət qüvvələrini müsəlmanların üzərinə hücuma keçməyə vadar etməyə hesablanmışdır. Erməni mətbuatının yalan və iftira dolu təbliğatı, erməni silahlı dəstələrinin cənubi Qafqazda törətdikləri kütləvi qırğınlar və terror aktları barədə o dövrün mətbuatında və ayrı-ayrı müəlliflərin əsərlərində kifayət qədər faktlar mövcuddur. Ən önəmlisi isə həmin faktları erməni müəlliflərinin özlərinin etiraf etmələridir ( Mustafa, Xalq, 2020). Ermənilərin yaydığı bu yalan, iftira və böhtanlara etiraz olaraq o zaman ziyalılarımız tərəfindən azərbaycan Türklərinə məxsus azsaylı mətbuat orqanlarında çoxlu məlumatlar verilmişdir.

Ermənilər mətbuat orqanlarında yaydıqları böhtanlardan başqa yuxarı dairələri də aldatmaq üçün saxta heş bir əsası olmayan teleqramlar vurmuşlar. Ermənilər bu cür şovinist millətçi hərəkətləri ilə 1905-1906-ci illərdə Zəngəzur qəzasının müsəlmanlar yaşayan kəndlərində yüzlərlə müsəlmanı qətlə yetirərək mal-mülkünü ələ keçirmiş, minlərlə Türk-müsəlman əhalini bölgəni tərk etməyə məcbur etmişlər.

Bununla bağlı Gürcüstan Dövlət Arxivində olan bir sənəddə Zəngəzur qəza rəisi Avalianinin 1905-ci il oktyabrın 15-də Zəngəzurun mərkəzi Gorusdan Tiflis şəhərinə vurduğu 231 nömrəli teleqramında göstərilir ki, qəzada baş verən özbaşınalıqlar zamanı 5 erməni kəndi, 10 tatar (Türk-H.B.) kəndi zərər görmüş erməni kəndlərindən ələ keçirilmiş əşyalar ermənilərə qaytarılmış və bunu törədən tatarlar (Türklər-H.B.) həbs edilmişdir. Ancaq tatarların (Türklərin-H.B.) ermənilər tərəfindən ələ keçirilən malları geri qaytarılmamış, ancaq bir neçə günahkar həbs edilmişdir. Tərəfimizdən ermənilər tərəfindən talan edilmiş tatarların (Türklərin-H.B.) əmlaklarının geri qaytarılması və terror yolu ilə dinc kənd əhalisini vəhşiliyə sövq edən günahkarların tutulub cəzalandırılması barədə tədbirlər görülür (Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi, v 113). Zəngəzur qəza rəisi Avalianinin yuxarı dairələrə ünvanladığı belə teleqramlar ermənilər tərəfindən təkzib edilmiş, hətta ermənilər yuxarı dairələrə Avalianiyə qarşı da böhtan və iftiralarla dolu şikayətlər göndərmişlər.

Yenə də arxiv sənədlərində olan məlumatlarda ermənilər tərəfindən yazılmış belə şikayətlərdən biri 11 oktyabr 1905-ci ildə Yelizavetpol quberniyasının qeneral-qubernatoru Tokayişviliyə göndərilmiş teleqramda öz əksini tapmışdır. Erməni milliyyətindən olan Gorus sakinləri Osepyan, Ter-Minasyan, Parsiyan və başqaları, Zəngəzur qəza rəisi Avalianini guya ki, ermənilərə qarşı törədilən zorakarlıqları gizlətdiyinə görə quberniya rəhbərliyinə şikayət etmişlər (Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi, v 92). Yuxarıda verilmiş iki arxiv sənədindəki məlumatlara baxanda aydın olur ki, ermənilər Türk-müsəlman əhaliyə qarşı əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirməyə çalışdıqları zorakılıqları ört-bastır etmək üçün hiyləgərcəsinə Gorusda hadisələri törətməmişdən üç gün əvvəldən belə bir teleqramla quberniya rəhbərliyini çaşdırmağa çalışmışlar. Quberniya rəhbərliyinə vurulmuş bu teleqramda ermənilərin iddiasına görə, guya ki, Zəngəzur qəza rəisi Avaliani müsəlmanların tərəfini saxlayaraq erməniləri sıxışdırır. Ermənilər mətbuatda bir tərəfdən hücuma məruz qaldıqlarını tirajlayır, digər tərəfdən müsəlman kəndlərinə hücumlar təşkil edərək Türk-müsəlman əhalini öldürərək mal-mülkünü talayırdılar.

O zaman M.M.Nəvvab bu haqda öz əsərində yazır ki, bu hadisələr səbəbiylə barışıq üçün məscidə gələn erməni xəlifəsi və keşişləri barışıq nitqindən sonra müsəlmanlarda daxil olmaqla naçalnikin müşaiyəti ilə musiqi sədaları altında erməni məhəlləsinə doğru hərəkət etdilər. Bu zaman sülh bayraqlarından birini mən (Nəvvab) alıb iki ay məsciddə saxladım. Sora keşişlər gəlib həmən bayrağı geri istədilər. Mən cənab Nəcəfqulu ağanın şahidliyi ilə keşişlərdən qəbz alaraq

bayrağı geri verərkən birlikdə məscidin qarşısında Əfrasiyabın şəklini çəkdirdim. Bunu mən ermənilərin sonradan üstümüzə böhtan atmaması üçün əyani dəlil kimi çəkdirdim (Nəvvab, 1993, s. 46). Bu faktın özü ermənilərin yalan və böhtan yaymaqda məşhur olduğunu, Qafqazda hətta erməni siyasətçilərinə, ziyalılarına yox həm də erməni din xadimlərinə qarşı olan inamın tamamilə yox olmasının əyani sübutudur.

**Nəticə**

O dövr ermənilərin yaydığı bu yalan və böhtanlara baxmayaraq Erməni silahlı dəstələrinin cənubi Qafqazda törətdikləri kütləvi qırğınlar və terror aktları barədə dəqiq məlumatlar o dövrün mətbuatında və ayrı-ayrı müəlliflərin əsərlərində həttan xarici ölkə mətbuatında da işıqlandırılmışdır. Ən önəmlisi isə həmin faktları bir çox erməni müəlliflərinin özlərinin də etiraf etmələridir (Mustafa, Xalq, 2020, s. 7). Əldə edilmiş faktlardan aydın olur ki, 1905-1906-ci illərdə baş verən hadisələr zamanı Qafqazda çar hökuməti tərəfindən dəstəklənən erməni terror dəstələri on minlərlə günahsız insanı qətlə yetirmiş və mal-mülkünü talan etmişdir. Çar Rusiyasının erməniləri dəstəkləməsinin səbəblərindən biri bölgədə öz iqtisadi-siyasi maraqlarını təmin etmək idisə, digər səbəbi isə Qafqaza köçürüb gətirdiyi ermənilərinin yaşayış təlabatını ödəmək üçün müsəlmanların mal-mülkünün ermənilər tərəfindən talan edilməsinə şərait yaratmaq və ermənilərin hökumətdən yaşayış tələbatlarını tələb etməsini azaltmaq idi.

**Kaynaklar**

Ağayev, Ə. bəy. Müsəlmanlar barəsində təzə iftira və böhtan və bu iftira və böhtan üzrə qorxulu bir iftira. (1905, 16 iyun).*Təzə həyat.*

Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920). (2001). *Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü,*

Azərbaycan tarixi arxiv sənədlərində. XIX-XX əsrlər. Ermənilərin Şimali Azərbaycana torpaqlarına köçürülməsi (2012). (Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri). *Çaşıoğlu.*

Azərbaycanın əzəli və əbədi torpağı. (2020). *İrəvan xanlığı* (indiki Ermənistan, 4 cilddə). (C. II). Nurlan Nəşriyyat-Poliqrafiya Mərkəzi.

Bakı xəbərləri. (1905, 19 iyul). *Təzə həyat.*

Həsənov, B. (2022). *Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyat).*İdeal-Print MMC.

İrəvan xəbərləri. (1905, 11 iyun).Təzə həyat.

İsmayılov, K. (2017). *Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920).* Elm.

Qafqaz canişininin dəftərxanası 1905-1917-ci illər. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi. f.13, siy.15, iş 128, v 92

Qafqaz canişininin dəftərxanası, 1905-1917-ci illər. Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivi. f.13, siy.15, iş 128, v 113.

Qənbərli, H. (2020). Yaddaşlarda yaşayan ömür. (Tərtib. M. Ağalarli ve B. Həsənov). Elm və Təhsil nəşriyyatı.

Mustafa, N. Azərbaycanlılara qarşı törədilən kütləvi qırğınlar barədə erməni etirafları. (2020, 26 aprel). *Xalq*. № 80, s. 7.

Mustafa, N. Y. (2022). *Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906).* Elm və Təhsil.

Nəvvab, Mir M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Azərbaycan nəşriyyatı.

Nəvvab, Mir M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Azərbaycan nəşriyyatı.

Ordubadi, M.S. (1991). *Qanlı illər*. Qarabağ Xalq Yardım Komitəsi.

Sertçelik, S. (2017). Rus və erməni mənbələri işığında erməni problemi, meydana çıxma prosesi (1878-1914). Srt Yayınları.